**FD.03.021 dissertasiya şurasınn**
**fəaliyyəti haqqında**

# HESABAT

Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzin nəzdində fəaliyyət göstərən FD 03.021 Dissertasiya şurası Azərbaycan Respublikası Prezidentı yanında Ali Attesstasiya Komissiyasının 04 fevral 2011-ci il 30 saylı əmri (14.01.2011-ci il tarixli (protokol № 02-R) ilə təsdiq edilmişdir.

Həmin əmrə əsasən ARSN MOM FD 03.021 Dissertasiya şurasına tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan aşağıdakı ixtisaslarda dissertasiyaların müdafiəsinə icazə verilmişdir:

-14.00.14- "onkologiya", tibb elmləri;

-14.00.19- "şüa diaqnostikası və terapiyası", tibb elmləri.

Dissertasiya şurasının səlahiyyət müddəti 15 dekabr 2012-ci il tarixədək müəyyən edilmişdir.

**1.2011-ci il ərzində FD 03.021 Dissertasiya şurasının 17 iclası keçirilmişdir.**

**2. Şuranın bütün iclasları 98% şura üzvlərinin iştirakı ilə keçirilmişdir.**

**3. Hesabat ilində şuranın baxdığı tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların təhlili:**

a) "Azərbaycanda uşaqların bədxassəlı şişlərlə xəstələnməsi" mövzusunda dissertasiya işi 14.00.14- "onkologiya" ixtisasında tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan Azərbaycan Tibb Universitetinin əyani doktorantı **Fəridə Alı qızı İsmayılova** tərəfindən təqdim edilib.

İşin ilkin müzakirəsi 06 aprel 2010-cu ildə Azərbaycan Tibb Universitetinin onkologiya, epidemiologiya, III cərrahi xəstəliklər kafedralarının, ATU-nun Onkoloji klinikasının əməkdaşlarının birgə elmi konfransında keçirilmişdir.

AAK-ın əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 12 noyabr 2010-cu il tarixində Milli Onkologiya Mərkəzinin tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib.

Dissertasiya işinin rəsmi müdafıəsi Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən FD 03.021 Dissertasiya şurasının 27 may 2011-ci il tarixli iclasında keçirilmişdir.

Dissertasiya işində Azərbaycanda və onun müxtəlif fiziki-coğtafi regionlarında uşaqlarda bədxassəli şişlərin Beynəlxalq tə

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bədxassəli şişlərlə xəstələnmənin strukturu və səviyyəsi öyrənilmişdi. Müəyyən edilmişdir ki, bədxassəli şişlərlə xəstələnmənin yüksək səviyyəsi Böyük Qafqazın cənub-şərq hissəsində, xəstələnmənin ən aşağı səviyyəsi isə Kür dağarası çökəkliyində qeydə alınmışdır.Xəstələnmənin strukturunda hemoblastozlar 51,86%, solid şişlər 48,14% təşkil etmişdir. Bir çox xəstəliklərə əksər hallarda xəstəliyin III-IV mərhələsində rast gəlinmişdir.

Azərbaycanda və Respublikanın müxtəlif fiziki-coğrafi vilayətlərində uşaqlarda ayrı-ayrı şiş formaları ilə xəstələnmə səviyyəsi üzrə alınan məlumatlar bu xəstəliklərə qarşı mübarizə tədbirlərinin hazırlanmasında və differensiasiyalı qurulmasında istifadə edilə bilər.

b) "Burun-udlaq xərçəngi olan xəstələrdə sürətləndirilmiş hiperfraksiya rejimində ayrıca və radiosensibilizasiya məqsədi ilə sitostatiklər- sisplatin və 5-florurasil ilə birlikdə şüa müalicəsi" mövzusunda dissertasiya işi 14.00.19- "şüa diaqnostikası və terapiyası" və 14.00.14- "onkologiya" ixtisaslarında tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan Milli Onkologiya Mərkəzinin qiyabi doktorantı **Qazıyeva Rəzidə Rauf qızı** tərəfindən təqdim edilib.

İşin ilkin müzakirəsi 26 noyabr 2010-cu ildə Milli Onkologiya Mərkəzinin onkologiya, şüa terapiya, kimyaterapiya şöbələrinin əməkdaşları ilə birgə elmi konfransında keçirilmişdir.

AAK-ın əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 22 aprel 2011-ci il tarixində Milli Onkologiya Mərkəzinin nəznindəki tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib.

Dissertasiya işinin rəsmi müdafıəsi Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən FD 03.021 Dissertasiya şurasının i29 iyun 2011-ci il tarixli iclasında keçirilmişdir.

Dissertasiya onkologiyada və şüa terapiyasında aktual mövzuya həsr olunmuşdur. İlk dəfə olaraq burun-udlaq xərçəngi olan xəstələrdə sürətləndirilmiş hiperfraksiya rejimində aparılan şüa müalicəsinin təklikdə 5-florurasil və sisplatin ilə kombinəsində müalicənin effektivliyi lazımı səviyyədə öyrənilmişdir. Bundan əlavə ilkin şişin reqressiyası, şüa müalicəsindən sonra xəstələrin həyatının keyfiyyəti araşdırılmışdır. Kimya-dərman ilə birlikdə aparılan şüa müalicəsinin fəsadları və ağırlaşmaları ətraflı öyrənilmişdir.

İşin nəticələri LOR-onkoloqların, şüa terapevtlərin və kimyaterapevtlərin işində praktiki əhəmiyyəti vardır. İşdə alinan nəticələr həmçinin müvafiq metodik-tədris materialların hazırlanmasında və tibbi tədris prosesində də əhəmiyyətlidir.

c) "Düz bağırsaq xərçənginin fəsadlaşmış formalarının cərrahi müalicə taktikasının əsas prinsiplərinin seçimi" mövzusunda dissertasiya işi 14.00.14- "onkologiya" ixtisasında tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Onkologiya Mərkəzinin əyani doktorantı **Vəlibəyova Mənsurə Çinqiz qızı** tərəfindən təqdim edilib.

İşin ilkin müzakirəsi 11 mart 2011-ci ildə Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin abdominal onkologiya, ümumi onkologiya, onkoginekologiya, onkourulogiya, kimyaterapiya, torokal onkologiya, anesteziologiya bölmələrinin əməkdaşları ilə birgə elmi konfransında keçirilmişdir.

AAK-ın əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 06 may 2011-ci ildə Milli Onkologiya Mərkəzinin nəzdindəki tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib.

Dissertasiya işinin rəsmi müdafıəsi Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən FD 03.021 Dissertasiya şurasının 30 iyun 2011-ci il tarixli iclasında keçirilmişdir.

Müxtəlif müasir metodların diaqnostik imkanları öyrənilmiş və bağırsaq keçməməzliyi ilə fəsadlaşmış düz bağırsaq xərçəngi olan xəstələrin müalicəsi üçün diaqnostık alqoritm hazırlanmışdır. Bağırsaq keçməməzliyi ilə fəsadlaşmış düz bağırsaq xərçəngi olan xəstələrin əməliyyatönü konservativ metodları təkmilləşmiş, SAPS inteqral sisteminin ölçüsü ilə qiymətlənərək, bağırsağın stenoz dərəcəsindən asılı və xəstənin somatik vəziyyətinə uyğun, optimal differensial yanaşma taktikası hazırlanmışdır. Düz bağırsaq xərçəngi fonunda, düz bagırsağın stenoz dərəcəsindən və bədxassəli prosesin mərhələsindən asılı olaraq bagırsağın keçməməzliyinin aparıcı klinik xüsusiyyətlərinin öyrənilməsi, xəstələrin ağırlıq dərəcəsini nəzərə alaraq, müasir müayinə metodlarının imkanlarından istifadə edərək, yaxın və uzaq nəticələrinin öyrənilməsindən sonra müalicə-diaqnostik alqoritm işlənib hazırlanmışdır.

Dissertasiya işinin nəticələri praktiki əhəmiyyət kəsb etməklə, bağırsaq keçməməzliyi ilə fəsadlaşmış düz bağırsaq xərçəngi olan xəstələrdə radikal əməliyyatların sayının artmasına, əməliyyatdan sonrakı fəsadlarının və ölüm hallarının azalmasına şərait yaradır.

ç) "Mədə xərçənginin radikal cərrahi müalicəsinin optimal həcminin seçilməsi" mövzusunda dissertasiya işi 14.00.14- "onkologiya" ixtisasında tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan Azərbaycan Tibb Universitetinin əyani doktorantı **Ramilə Tahir qızı Abdullayeva** tərəfindən təqdim edilib.

İşin ilkin müzakirəsi 18 noyabr 2010-cu ildə Azərbaycan Tibb Universitetinin onkologiya, sitologiya, histologiya, embriologiya , III cərrahi xəstəliklər kafedralarının, ATU-nun Onkoloji klinikasının və Bakı Şəhər Onkoloji Dispanserin əməkdaşlarının birgə elmi konfransında keçirilmişdir.

AAK-in əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 08 aprel 2011-ci ildə Milli Onkologiya Mərkəzinin nəzdindəki tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dissertasiya işinin rəsmi müdafiəsi Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən FD 03.021 Dissertasiya şurasının 30 iyun 2011-ci il tarixli iclasında keçirilmişdir.

Azərbaycanda mədə xərçəngli xəstələrdə genişləndirilmiş limfodisseksiya ilə birgə icra edilən radikal cərrahi əməliyyatın yaxın və uzaq nəticələri öyrənilmiş və standart radikal cərrahi əməliyyat aparılmış xəstələrin müvafiq nəticələri ilə müqayisə edilmişdir. Bundan əlavə mədə xərçəngli xəstələrdə genişləndirilmiş limfodisseksiyanın hansı həcmdə aparılması müəyyənləşdirilmişdir. Bununla mədə xərçəngli xəstələrdə radikal cərrahi əməliyyatın optimal həcmi seçilmişdir.

Genişləndirilmiş limfodisseksiyaya münasibətdə cərrahi əməliyyatın həcminin adekvat seçilməsi mədə xərçənginin mərhələsinin dəqiq qiymətləndirilməsinə, beləliklə də sonrakı adyuvant müalicənin aparılmasını tələb edən halların müəyyənləşdirilməsini təmin edəcəkdir.

d)“Uşaqlıq boynu xərçənginin konkurent kimyaradıoterapiyasının optimallaşdırılması ” mövzusunda dissertasiya işi 14.00.19- “şüa diaqnostikası və terapiyası” və 14.00.14- “onkologiya” ixtisaslarında tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan Milli Onkologiya Mərkəzinin qiyabi doktorantı **Əkbərov Kamal Sabir oğlu** tərəfindən təqdim edilib.

İşin ilkin müzakirəsi 15 mart 2011-ci ildə Milli Onkologiya Mərkəzinin ümumi onkologiya və şüa terapiyası şöbələrinin əməkdaşları ilə birgə elmi konfransında keçirilmişdir.

AAK-in əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 31 may 2011-ci il tarixində Milli Onkologiya Mərkəzinin nəzdindəki tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib.

Dissertasiya işinin rəsmi müdafiəsi Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən FD 03.021 Dissertasiya şurasının 29 sentyabr 2011-ci il tarixli iclasında keçirilmişdir.

Dissertasiya onkologiyada və şüa terapiyasında aktual mövzu-Azərbaycanda qadınlarda rast gəlinən onkoloji xəstəliklər arasında ikinci yeri tutan uşaqlıq boynu xərçənginin müalicəsinə həsr olunmuşdur. İlk dəfə olaraq iri həcmli materialda yerli yayılmış uşaqlıq boynu xərçəngi olan xəstələrdə konkurent kimyaterapiyanın və ikifraksiyalı braxiterapiya rejimində aparılmış şüa müalicəsinin effektivliyi lazımı səviyyədə öyrənilmişdir. Bundan əlavə ilkin şişin reqressiyası, şüa müalicəsindən sonra xəstələrin həyatının keyfiyyəti araşdırılmışdır. Radioterapiyanın və kimyaterapiyanın ümumi və yerli erkən şüa reaksiyaları və onların korreksiya metodları aşkarlanmışdır. Kimyaterapiya ilə birlikdə aparılan şüa müalicəsinin fəsadlarını ətraflı öyrənilmişdir.

Dissertasiya nəticələrinin onkoginekoloqların, şüa terapevtlərinin və kimyaterapevtlərinin işində praktik əhəmiyyəti vardır. İ

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

müvafiq metodik-tədris materialların hazırlanmasında və tibbi tədris prosesində də əhəmiyyətli olacaqdır.

e)"Prostat vəzi xərçənginin sümük metastazlarının müalicəsində bisfosfonatların effektivliyi" mövzusunda dissertasiya işi 14.00.14- "onkologiya" ixtisasında tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan Milli Onkologiya Mərkəzinin əyani doktorantı **Teymur Nizami oğlu Musayev** tərəfindən təqdim edilib.

İşin ilkin müzakirəsi 23 dekabr 2010-cu ildə Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin kimyaterapiya, onkourologiya, şüa terapiyası, hematologiya və abdominal onkologiya şöbələrinin əməkdaşları ilə birgəı elmi konfransında keçirilmişdir

AAK-in əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 4 noyabr 2011-ci il tarixində Milli Onkologiya Mərkəzinin nəzdindəki tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib.

Dissertasiya işinin rəsmi müdafiəsi Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən FD 03.021 Dissertasiya şurasının 16 dekabr 2011-ci il tarixli iclasında keçirilmişdir.

Azərbaycanda kişilər arasında prostat vəzin xərçənginin ikinci yerdə olduğunu nəzərə alaraq dissertasiya onkologiyada aktual mövzuya həsr olunmuşdur. Sümük metastazları olan prostat vəzi xərçəngi ilə xəstələrdə aparılan kombinə olunmuş müalicəsində bisfosfonatların effektivliyi lazımı səviyyədə öyrənilmışdir. Bundan əlavə sümük metastazların reqressiyası, ağrı sindromunun dinamikası, xəstələrin həyat keyfiyyəti araşdırılmışdır. Homonterapiya ilə birlikdə aparılan bisfosfonatlarla müalicənin fəsadları və ağırlaşmaları ətraflı öyrənilmişdir.

Sümük metastazları olan prostat vəzin xərçəngi ilə xəstələrin palliativ müalicəsi üçün hormonterapiya fonunda bisfosfonatların istifadəsinə əsaslanan effektiv sxemlər işlənib hazırlanıb və kliniki praktikaya tətbiq olunub. Həmin sxemlərin istifadəsi sindromunun effektiv dayandırmaq, analgetiklərin istifadəsini azaltmaq və həyat keyfiyyətini yaxşılaşdırmaq imkan verir. Bu tədqiqatın nəticələrinə əsaslanan müalicə taktikasının istifadəsi sümük ağırlaşmalarının riskini istisna etmək və prostat vəzin xərçənginin stabilləşmə müddətini çöxaltmaq imkan verir

ə) "Sümük iliyinin qeyri-şiş mənşəli patologiyalarında və şişlərində angiogenezin təyini və onun əhəmiyyəti" mövzusunda dissertasiya işi 14.00.14- "onkologiya" ixtisasında tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan Azərbaycan Tibb Universitetinin onkologiya kafedrasının dissertantı **Elçin Cahangir oğlu Axundov** tərəfindən təqdim edilib.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İşin ilkin müzakirəsi 14 dekabr 2010-cu ildə Azərbaycan Tibb Universitetinin kafedralararası elmi konfransında keçirilmişdir.

AAK-in əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 16 dekabr 2011-ci il tarixində Milli Onkologiya Mərkəzinin nəzdindəki tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib.

### 4.Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiya:

| | İxtisasın şifri 14.00.14 | | İxtisasın şifri 14.00.19 | | İxtisasın şifri 14.00.30 | | İxtisasın şifri | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 14.00.19 | 14.00.14 |
| | Elm sahəsi tibb | Elm sahəsi | Elm sahəsi tibb | Elm sahəsi | Elm sahəsi | Elm sahəsi | Elm sahəsi | Elm sahəsi |
| İddiaçının ərizələri əsasında baxılmaq-dan çıxarılan işlər | - | - | - | - | - | - | - | - |
| Müdafiənin nəticələ-rinə görə müsbət qərar qəbul edilmişdir. | 6 | | 3 | | | | 3 | 3 |
| O cümlədən başqa təşkilatlardan | 2 | 2 | | | | | | |
| Müdafiənin nəticələ-rinə görə mənfi qərar qəbul edilmişdir. | - | - | - | - | - | - | - | - |
| O cümlədən başqa təşkilatlardan | - | - | - | - | - | - | - | - |
| Əlavə rəylər verillmişdir | - | - | - | - | - | - | - | - |
| 01 yanvar 2012- ci ilə baxılmamış işlər | 3 | | | | | | | |

### 5 .Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyalar:

a)“Mədəaltı vəzi xərçənginin müayinə və müalicə prinsiplərinin optimallaşdırılması” mövzusunda dissertasiya işi 14.00.14- “onkologiya” ixtisasında tibb elmləri doktoru elmi dərəcəsinə iddia olunan Azərbaycan Tibb Universitetinin onkologiya kafedrasının dosenti, t.ü.f.d. **Bayramov Ramiz Bəxtiyar oğlu** tərəfindən təqdim edilib.

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İşin ilkin müzakirəsi 2 fevral 2007-ci ildə Azərbaycan Tibb Universitetinin onkologiya, sitologiya, histologiya, embriologiya, I cərrahi xəstəliklər, II cərrahi xəstəliklər, III cərrahi xəstəliklər kafedralarının və Bakı Şəhər Onkoloji Dispanserin əməkdaşlarının birgə elmi konfransında keçirilmişdir.

AAK-in əsasnaməsinə əsasən, həmin işin təkrar müzakirəsi 17 iyun 2011-ci il tarixində Milli Onkologiya Mərkəzinin nəzdindəki tibb üzrə fəlsəfə doktorluq dissertasiyaların müzakirəsi üzrə Elmi seminarda keçirilib.

Dissertasiya işinin rəsmi müdafiəsi Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən B/D 03.021 Dissertasiya şurasının 17 noyabr 2011-ci il tarixli iclasında keçirilmişdir.

Böyük həcmli klinik material üzərində mədəaltı vəzi xərçənginin diaqnostikasında istifadə edilən müasir instrumental və laborator müayinə üsullarının mədəaltı vəzi xərçənginin diaqnostikasındakı informativlikləri öyrənilmiş, mədəaltı vəzi xərçənginin daha erkən dövrdə aşkar edilməsini təmin edən diaqnostik alqoritm tərtib edilmişdir. Bundan əlavə mədəaltı vəzi xərçəngi olan xəstələrin ömürlərinin uzadılmasını, həyat keyfiyyətlərinin yaxşılaşdırılmasını təmin edə bilən optimal müalicə taktikası formalaşdırılmışdır.

Aparılmış tədqiqat işi mədəaltı vəzi xərçənginin daha erkən dövrdə aşkar edilməsini, müvafiq xəstələrin rezektabellik göstəricilərinin artırılmasını, radikal cərrahi əməliyyatdan sonra ortaya çıxan agırlaşma və ölüm göstəricilərinin azaldılmasını, xəstələrin yaşama göstəriçilərinin yüksəldilməsini, palliativ müalicəyə ehtiyacı olan xəstələrin ömürlərinin uzaldılmasını və həyat keyfiyyətlərinin yüksəldilməsini təmin edəcəkdir

b)“Azərbaycan Respublikasında ağciyər xərçənginin klinik-epidemioloji xüsusiyyətləri” mövzusunda dissertasiya işi 14.00.14- “onkologiya” və 14.00.30- “epidemiologiya” ” ixtisaslarında tibb elmləri doktoru dərəcəsinə iddia olunan Milli Onkologiya Mərkəzinin doktorantı , tibb üzrə fəlsəfə doktoru **Əbülfəz Ağasoltan oğlu Soltanov** tərəfindən təqdim edilib.

İşin ilkin müzakirəsi 26 oktyabr 2011-ci ildə Azərbaycan Respublikası SN Milli Onkologiya Mərkəzinin poliklinika-qəbul, torokal onkologiya, abdominal onkologiya, kimyaterapiya, hematologiya, şüa diaqnostikası, şüa terapiyası şöbələri, patositomorfologiya və kliniki-biokimyəvi laboratoriyalarının birgə şöbələrarası elmi konfransında keçirilmişdir.

Tibb üzrə fəlsəfə doktoru Ə.A. Soltanov “Azərbaycan Respublikasında ağciyər xərçənginin klinik-epidemioloji xüsusiyyətləri” mövzusunda dissertasiyasının rəsmi müdafiəsini keçirmək üçün icazə almaqdan ötrü dissertasiya və attestasiya işinin sənədləri Azərbaycan Respublikası Prezidenti yanında AAK-a göndərilib.

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## 6.Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyalar:

| | İxtisasın şifri 14.00.14 | | İxtisasın şifri 14.00.19 | | İxtisasın şifri | |
|---|---|---|---|---|---|---|
| | | | | | 14.00.14 | 14.00.30 |
| | Elm sahəsi | Elm sahəsi | Elm sahəsi | Elm sahəsi | Elm sahəsi | Elm sahəsi |
| İddiaçının ərizələri əsasında baxılmaq-dan çıxarılan işlər | - | - | - | - | - | - |
| Müdafiənin nəticələ-rinə görə müsbət qərar qəbul edilmişdir. | 1 | 1 | | | | |
| O cümlədən başqa təşkilatlardan | 1 | 1 | | | | |
| Müdafiənin nəticələ-rinə görə mənfi qərar qəbul edilmişdir. | - | - | - | - | - | - |
| O cümlədən başqa təşkilatlardan | - | - | - | - | - | - |
| Əlavə rəylər verillmişdir | - | - | - | - | - | - |
| 01 yanvar 2012- ci ilə baxılmamış işlər | - | - | - | - | - | - |

**FD 03.021**
**Dissertasiya şurasının**
**sədri, akademik** **C.Ə.Əliyev**

**FD 03.021**
**Dissertasiya şurasının**
**elmi katibi,tibb üzrə fəlsəfə doktoru,**
**dosent.** **R.A.Hüseynova**

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional